# Torpağı Vətən edən igidlər





**44 günlük Vətən müharibəsinin birinci ildönümü ərəfəsindəyik. Ötən ilin bu günlərində Azərbaycanın mərd oğulları Ali Baş Komandanın rəhbərliyi altında 30 ilə yaxın bir dövrdə düşmən tapdağı altında qalmış torpaqlarımızın, Vətənimizin bir parçasının düşməndən azad olunması üçün silaha sarıldılar. Dəmir yumruq və ümumixalq birliyi bizə Zəfər gününü qismət etdi. Bu gün ölkəmizin 3 rəngli bayrağı artıq Ağdamda, Füzulidə, Kəlbəcərdə, Zəngilanda, Cəbrayılda, Qubadlıda, Laçında, Şuşada dalğalanır. İgid övladlarımızın canı və qanı bahasına Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Vətən müharibəsində 2907 nəfər hərbi qulluqçumuz şəhid oldu. Şəhidlərimizin qanı yerdə qalmadı. Yüzlərlə hərbi quluqçumuz bu döyüşlərdə yaralandı, sağlamlığını müəyyən dərəcədə itirdi, qazi oldular.**

Həmin qazilərdən biri də Cəbrayıl uğrunda gedən döyüşlər zamanı yaralananan, bu vəziyyətdə də ölümcül halda olan silahdaşını döyüş meydanından çıxarıb, xilas etməyi bacaranAstara igidi Qədəmullazadə Fərid Habil oğludur. Fərid Qədəmullazadə rayonun Artupa kəndində 30 avqust 1995-ci ildə anadan olub. Azərbaycan Texniki Universitetini bitirib. 2020-ci ildən Astara Rayon İcra Hakimiyyəti aparatının baş mütəxəssisi vəzifəsində çalışır. Dövlət qulluqçusudur. Fərid səfərbərlik elan edildikdən sonra Vətən müharibəsinin ilk günlərindən cəbhəyə yollanan hərbçilərimizdəndir.

Könüllü olaraq cəbhəyə yollanan Fərid Füzuli istiqamətindən döyüşlərə qatılır. Əvvəlcə sürücü kimi fəaliyyət göstərirsə də sonradan top atıcısı təyin edilir. Komanda müşahidə postuna aparılır. Orada təminata yardım edir. Sonradan təminat məqsədilə Cəbrayıl istiqamətinə göndərilir. Müharibə iştirakçımız o günlərin xatirəsini bizimlə bölüşərkən bildirdi ki, ”7-8 km piyada içində çoxlu döyüş ləvazimatları olan təminatı daşıyırdıq ,dağa dırmaşırdıq. Oktyabrın 1-də Cəbrayılın girişində mühasirəyə düşdük. Saatlarca orada qaldıq .Bizə əmr gəldi, hədəfi üstümüzə çəkdik. Özümüzü hədəf vermişdik ki,bizə atsınlar, ordumuz rahat irəliləyə bilsin. Orda hamımızın düşüncəsi bu idi ki,əgər düşmənlə qarşılaşsaq canını almadan, öz canımızı verməyəcəyik .Bir gündə başımızın üstündən on minlərcə mərmi keçir ,top atılır, raket atılırdı.”

Qəhrəmanımız yaralandığı anları belə xatırlayır: ”Füzulinin çıxışında Cəbrayılda yaralanmışam. Həmin vaxt biz çadırda 8 nəfər idik. Dördümüz astaralı idik. Səsi eşidəndə qışqırdım tullanın. Bizim olduğumuz səngərə- çadırın üstünə düşdü. Yerdə nə vardısa hər şeyi, məni də 1,5-2metr qaldırdı ,kənara tulladı.Döyüş sursatları olan yeşiklər var idi. Başım yeşiklərin arasında qaldı.Düşündüm ki,başım qopacaq. Amma o yeşiklər olmasa idi,mən şəhid olaraq gələcəkdim.Arxada Abdullahın səsini eşitdim.Gördüm, qəlpə ağzından girib,hər tərəfindən qan tokülürdü. Qaldırdım çiynimə 5-10 metr daşıdım.Sonra sürüməyə başladım.Bütün bunlar 5-10 saniyə içində baş verdi.4-5 metr aralanmışdıq ki,yenidən həmin yerə mərmi düşdü. Sonra bizə kömək gəldi ,yoldaşımı təhvil verdim ki,birinci onu aparın.”

Fəridi isə Füzuliyə - Əhmədbəyliyə hospitala aparıblar. Ayağından ağır qəlpə yaraları başından isə travma alıb. Qəlpələrin bir qismini çıxarıblar. Beş dəfə əməlliyyat edilib. Sinirlə sümük arasında olan kiçik qəlpələri çıxarmaq mümkün olmayıb. Elə qəlpələri çıxarmaq təhlükəli olduğu üçün bu qəlpələri ömür boyu Fəridbədənində daçıyacaq. Üç ay xəstəxanada -nevrologiya və reablitasiya şöbəsində müalicə aldıqdan sonra Fəridin ayağının funksiyası nisbətən bərpa olub.

3-cü qrup əlildir. Ölkə prezidentinin sərəncamına əsasən Cəbrayılın və Qubadlının azad edilməsinə görə və ”Cəsur döyüşçü” medalları ilə təltif edilib. Astaranın digər igid qəhrəman döyüşçüsü isə İlkin Polad oğlu Qafarovdur. 02.09.1993-cü ildə Astara rayonunda anadan olan İlkin 2010-cu ildə Artupa kənd orta məktəbini bitirdikdən sonra Sumqayıt Dövlət Universitetinə qəbul olub.

2014-cü ildə ali təhsilini bitirdikdən sonra hərbi xidmətə yollanıb. Vətən müharibəsinə könüllü olaraq qatılan qəhrəmanımız 8 oktyabr tarixində Xocavənd uğrunda gedən döyüşlərdə yaralanıb.

**Ölkə rəhbərliyinin sərəncamına əsasən ”Cəsur döyüşçü” medalı ilə təltif olunub.**

Ədalət .- 2021.- 9 oktyabr - S. 4.